**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTE**

**PEDAQOJİ UNİVERSİTETLƏRDƏ**

**BAKALAVR HAZIRLIGI ÜÇÜN**

# P R O Q R A M

**Dilçiliyə giriş**

(050101- Azərbaycan dili və ədəbiyyatı müəllimliyi)

**Azərbaycan Respublikası Təhsil Nazirliyinin**

**28.09.2021-ci il tarixli F-462 saylı əmrinə**

**əsasən çap edilir.**

**BAKI – 2021**

**Proqram ADPU-nun Azərbaycan dilçiliyi kafedrasında hazırlanmışdır**

Elmi redaktor: **Mahirə Hüseynova**

***filologiya elmləri doktoru, professor***

Tərtib edən: **Həcər Hüseynova**

***filologiya elmləri doktoru, professor***

Rəyçilər: **Adil Babayev**

***filologiya elmləri doktoru, professor***

**Vaqif İsrafilov**

***filologiya elmləri namizədi, dosent***

**İradə Kərimova**

***filologiya elmləri namizədi***

## İzahat vərəqəsi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2013-cü il 10 aprel tarixli: "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında sərəncamına əsasən, dilçiliyin və onun müxtəlif şöbələrinin, sahələrinin, eyni zamanda ***Dilçiliyə giriş*** fənninin inkişaf etdirilməsi, müasir tələblərə cavab verən tədqiqatların aparılması, proqram, dərslik və dərs vəsaitlərinin yenidən hazırlanmasının vacibliyi gündəmə gəlir.

Azərbaycan dilçiliyinin tədqiqi istiqamətində axtarışlar davam edir. Araşdırmalar aparılaraq yeni faktlar məlum olduqca, faktlara yeni nəzərlə yanaşmaq təbii olduğu kimi, tədris sahəsində dərslik və proqrama yeni tələblərlə yanaşmaq xüsusi tədqiqat tələb edir. Faktlara bu cür yanaşma və təhlil ilə hadisələrin yeni istiqamətdə dərk edilməsinə çalışmaq elmin inkişaf tələblərindən irəli gəlir. Elmi və ümumi mədəni yüksəliş anlayışların diferensial dəqiqləşmələri ilə nəticələnir. Ona görə araşdırmalara yeni münasibətlər də formalaşdırılmalıdır.

Müasir dünya təhsilinə inteqrasiya edən Azərbaycan təhsil sistemi də müasirləşməli, hər bir fənnin tədrisində yeni kurikulumun tələblərinə əməl edilməlidir.Təhsil islahatlarının mərhələlərini ( I mərhələ 1999-2003 öyrədici-innovativ; II mərhələ 2004-2007 hazırlıq; III mərhələ 2008-2013 tətbiqetmə) nəzərə alsaq, artıq yeni təhsil sistemi universitetlərdə də tətbiq edilməlidir. Çünki artıq orta məktəbi yeni –müasir Təhsil Standartları əsasında bitirmiş olan məzunlar ali məktəblərdə təhsillərini davam etdirməyə başlamalıdırlar. Buna görə bütün ali məktəb fənləri də kurikulum əsasında tədris edilməlidir.

Fənn kurikulumlarının səciyyəvi cəhətlərinin müqayisəli təsviri: ənənəvi təhsil proqramından fərqli olaraq müasir kurikulum şəxsiyyətyönümlüdür, nəticəyönümlüdür, tələbyönümlüdür, inteqrativlik əsas prinsip kimi qəbul olunub, şagirdyönümlüdür və qiymətləndirmə standartları, mexanizmləri müəyyən edilib.

**Təhsil proqramının sonunda məzun aşağıdakı ümumi kompetensiyalara yiyələnməlidir:**

-İxtisası üzrə ən azı bir xarici dildə kommunikasiya bacarığına;

-Azərbaycan dialektologiyasının tarixi, hüquqi, siyasi, mədəni, ideoloji əsasları və müasir dünyadakı yeri və roluna dair sistemli və hərtərəfli biliklərə, milli dövlətimizin perspektiv inkişafını proqnozlaşdırma qabiliyyətinə;

-Ölkəmizə və dövlətçiliyimizə qarşı yönəlmiş təzyiqləri müəyyənetmə qabiliyyətinə;

-İş yerində informasiya texnologiyalarından istifadə etmək qabiliyyətinə;

-Məsələlərin həlli üçün əlavə məlumat resurslarını müəyyən etmək və seçə bilmək qabiliyyətinə;

- İxtisası üzrə nəzəri bilikləri və dilimizin tarixi köklərini əks etdirən fikirlər yürütmək bacarıqlarına;

- Yeni şəraitə uyğunlaşmaq, təşəbbüs irəli sürmək qabiliyyətinə və uğur qazanmaq iradəsinə;

- Peşəkar fəaliyyətini planlaşdırmaq, təşkil etmək, gələcək təhsilini və mövcud bcarıqlarını inkişaf etdirmək, zamanı məqsədlərinə görə idarə edə bilmək, verilən tapşırıqları vaxtında bitirə bilmək qabiliyyətinə;

- Şəxsi fəaliyyətində sosial-ekoloji məsuliyyətə, eləcə də vətəndaş şüuru, etik yanaşma və keyfiyyətə üstünlük vermə bacarığına;

- Bilik və bacarığını inkişaf etdirmək məqsəfilə vəziyyəti və özünü yenidən qiymətləndirmək və özünütənqid bacarığına.

**Təhsil Proqramının sonunda məzun aşağıdakı peşə kompetensiyalarına yiyələnməlidir:**
-Dilçilik üzrə qazanılmış bilik, bacarıq və vərdişlərə uyğun olaraq problemlərin həllində iştirak etməyə hazır olmaq bacarığına;
-Təlim prosesini ümumi təhsilin dilçiliyə giriş fənni üzrə dövlət standartlarının tələblərinə uyğun olaraq təşkil etmək bacarığına;
-Azərbaycan dili dərslərinin tədrisində (leksika) dialektoloji materialların öyrədilməsi zamanı şagirdlərdə mütaliə səriştələrini formalaşdırmaq, mənəvi-əxlaqi inkişafa nail olmaq bacarığına;
-Fənnin nəzəri və praktik səviyyədə öyrənilməsinin tərkib hissəsi olan psixoloji, pedaqoji, didaktik, kommunikativ məsələlərdən baş çıxara bilmək bacarığına;
-Təhsilalanların istedadının aşkar olunması və inkişafı ilə bağlı distant təlim texnologiyalarından istifadə bacarığına;
-Tədris etdiyi fənnə hazır biliklər toplusu kimi deyil,daimi dərketmə prosesi kimi baxmaq, analiz və sintez etmək qabiliyyətinə...
- Gözlənilən təlim nəticələrinə uyğun olan müvafiq qiymətləndirmə meyarları və metodlardan məqsədli şəkildə seçmək və tətbiq etmək bacarığına;
- Fənnin nəzəri və praktik səviyyədə öyrənilməsinin tərkib hissəsi olan psixoloji, pedoqoji, didaktik kommunikativ məsələlərdən baş çıxarmaq bacarığına;
- Yeni situasiyalara adaptasiya olunmaq, yeni ideaları generasiya etmək qabiliyyətinə;
- Problemli şəraitdə təşəbbüskarlıq göstərmək və məsuliyyəti öz üzərinə götürmək bacarığına...

**Fənnin hədəfi:**

- Dilçiliyə giriş fənninin əsas hədəfi təhsilalanların-tələbələrin dilimizin yaranması, formalaşması və inkişafı ilə balı nəzəri bilik və bacarıqlarını aşkar etmək, tədris ili boyunca əldə etdikləri bilik və vərdişləri sistematik olaraq anlamalarını təmin etmək, əldə etdkləri biliklərdən məntiqi nəticə çıxara bilmək bacarıqlarını aşkar etməkdən ibarətdir.

**Fənnin məqsədi:**

- Dünyada dilçiliyin yaranması və inkişafı haqqında mükəmməl məlumatların öyrənilməsi istiqamətində biliklərin ardıcıl və sistemli şəkildə formalaşdırılması;
- Dilçiliyin vətəni, qədim dövrdə dilçiliyin inkişafı istiqamətində qədim dövlətlərin rolunun müəyyənləşdirilməsinin öyrədilməsi;
- Qədim Şərqdə və Qərb ölkələrində, xüsusilə də dilimizin qədim tarixini öyrənmək məqsədilə türk dünyasında dilçiliyin inkişafı haqqında biliklərin dərinləşdirilməsi;
- Avropada dilçiliyin inkişafı istiqamətində əldə edilmiş nailiyyətlərin öyrənilməsi;
-Dilçilik problemlərinin həllinə xidmət edən müasir metod və üsulları öyrənib tətbiq etmək və s.
- Fənnin mühüm məqsədlərindən biri də, tələbələrin öyrəndikləri qaydaları kommunika - siya zamanı düzgün istifadə etmələrinə zəmin yaratmaqdan ibarətdir.
-Tələbələrin interaktiv tapşırıqlar vasitəsilə düzgün istifadə metodlarını öyrənmək, onların nəzəri biliklərini üzə çıxarmaqla yanaşı, eyni zamanda tələbələrin təxəyyülünün inkişafına, yaradıcılıq qabiliyyətinin aşkarlanmasına köməklik göstərmək də bu fənnin qarşısında duran başlıca məqsədlərindəndir.
- Daha bir məqsədimiz isə, fənnin tədrisi zamanı tələbələrin əldə etdikləri biliklərdən istifadə etməklə fikir mübadiləsi və müzakirəsində iştirak etməsini təmin etmək, onların interaktiv

fəallıqlarını artırmaq, tələbələri öyrəndikləri mövzulara aid slaydlar və s. hazırlamağa həvəsləndirməkdən, onları müasir təlim metodlarından, yeni texnologiyalardan istifadə etməyə sövq etməkdən ibarətdir.

**Dilçiliyə giriş fənninin təlim nəticələri:**

FTN 1. Qazandığı elmi-nəzəri materialdan istifadə edərək müxtəlif mövzuları təsvir edir.
FTN 2. Dünya dilçiliyinin sahələri və şöbələrini müəyyənləşdirirlər.
FTH 3. Dünyada dillərin təsnifi prinsiplərini öyrənir,dil ailələri haqqında məlumat alırlar.
FTH 4. Dil, yazı və əlifbanın yaranması məsələləri haqqında mükəmməl bilik əldə edirlər.
FTH 5. Dil, nitq, düşüncə anlayışlarını öyrənir, onları fərqləndirməyi bacarır, əla- qələrini müəyyən edə bilirlər.
FTN 6. Müasir dövrdə dil və cəmiyyətin əlaqəsini, dil kontaktlarını öyrənirlər.
FTN 7. Fənnin tədrisi zamanı innovativ metodlardan istifadə edərək müasir standartlara uyğun qiymətləndirmə aparır.

**Qiymətləndirmə metodları:**

Dilçiliyə giriş fənninin tədrisi zamanı tələbəyönümlüyə xidmət edən müxtəlif qiymətləndirmə formalarından istifadə edilə bilər. Məsələn:
- yazı işləri
-test tapşırıqları
- Müzakirələr
-frontal və fərdi sorğu
-qrup işləri və digər.
Lazım gəldikdə qiymətləndirmə üsul və formaları birləşdirilə, yeniləri ilə əvəzlənə bilər.

**Fənnin tədrisində istifadə olunacaq təlim və öyrənmə metodları:**

Müntəzəm şəkildə həyata keçirilən innovativ öyrənmə metodları tətbiq edilərək, daim nəzarətdə saxlanılaraq təkmilləşdirilməlidir. Fənnin tədrisi zamanı istifadə etdiyimiz tədris və öyrənmə metodlarına, təxminən, aşağıdakıları nümunə göstərmək olar:

- Praktiki tapşırıqlar (daha çox ist. olunur)
- Təqdimatlar, müzakirələr (daha çox ist. olunur)
- Müstəqil iş, araşdırma, esse (daha çox ist. olunur)
- Qrup yarışmaları
- Cütlərlə iş
- Hesabatlar
- Video və audio seminarlar
- Stimulyasiyalar
- Qrup qiymətləndirməsi və s.

Fənnin tədrisi zamanı nəzəri və tətbiqi məsələlər arasında nisbətin gözlənilməsinə də diqqət yetirilməlidir.

**Dilçiliyə giriş fənninin təsviri:**

Dilçiliyə giriş fənni tələbələrin dünya dilləri, xüsusilə də Azərbaycan dili və digər türk dillərinin yaranması, formalaşması, inkişafı və dünya dillərinin formalaşmasındakı rolu haqqında məlumatları mənimsəməyə, dilimizin tarixi kökləri haqqında dərin elmi biliyə malik olmağa yönəldir.

**Kursun məzmunu:**

"Dilçiliyə giriş" fənninin tədrisi zamanı auditoriya dərslərinin həcmini nəzərə alaraq üç modula bölmək məqsədəuyğundur. Hər modulun sonunda aralıq imtahanı və bir sərbəst iş yerinə yetirilməlidir. Mövzuların aşağıdakı şəkildə təqdim edilməsi məqsədəuyğundur:

## I Modul

**I Mövzu: "Dilçiliyə giriş"fənninin obyekti, məqsədi, vəzifələri.** Elmin adlandırılmasında müxtəlif terminlərdən istifadə: dilçilik, linqvistika, dilşünaslıq. Ünsiyyət vasitəsi olan dilin daxili və zahiri cəhətlərinin müəyyənlədirilməsi, elmin nəzəri və praktik əhəmiyyəti. Elmin Azərbaycan dilinin və digər dillərin öyrənilməsində rolu. Dilçiliyin dövlətçilik istiqamətində əhəmiyyəti. Elmlər sistemində yeri. Digər dilçilik fənləri ilə əlaqəsi. Dilçiliyin ümumtəhsil əhəmiyyəti.

**II Mövzu: Dilçiliyin yaranması və inkişafı.** Qədim mədəni ölkələrdə dilçiliyin inkişafı: qədim dövr (Hindistan, Yunanıstan, Roma); Orta əsrlərdə (Şərq və Qərbdə); İntibah dövründə və Yeni dövrdə dilçiliyin inkişafı. Türkoloji dilçilik.

XIX əsr dilçiliyi. Dilçilikdə tarixi-müqayisəli metodun tətbiqi, yaranan elmi nəzəriyyələr və onların nümayəndələri.

XX əsrdə dilçiliyin inkişafı. Azərbaycan dilçiliyi və onun inkişafı yolları. Yeni dövr dilçiliyi.

**III Mövzu:** Dilçiliyin sahələri, şöbələri, dil sistemləri. Dilçiliyin nəzəri və tətbiqi; ümumi və xüsusi sahələri, onların əsas problemləri.

Tətbiqi dilçilik və onun xalqın milli mədəniyyətinin tərəqqisində rolu. Tətbiqi dilçiliyin əsas problemləri: yazı məsələləri, lüğətlərin, xüsusilə orfoqrafik və orfoepik lüğətlərin yaradılması məsələləri...

Nəzəri dilçilik və onun inkişafı, qarşısında duran vəzifələr. Dillərin inkişafında yeni nəzəriyyə və müddəalar. Dilin nəzəri problemlərinin öyrədilməsi- nin məqsədi. Nəzəri və tətbiqi dilçiliyin qarşılıqlı əlaqəsi. Ümumi və xüsusi dilçiliyin səciyyəvi cəhətləri.

**IV Mövzu:** Dilçiliyin nəzəri və tətbiqi şöbələri. Nəzəri dilçilikyin şöbələri: fonetika, leksikologiya, onomalogiya, frazeologiya, semasiologiya, etimologiya, derivatologiya, morfologiya, sintaksis. Nəzəri dilçilik şöbələrinin obyekti, məqsədi, inkişaf mərhələləri. Tətbiqi dilçiliyin şöbələri: qrafika, orfoqrafiya, orfoepiya, leksikologiya, linqvotərcüməşünaslıq. Dilçilik sahələrinin bir-biri ilə əlaqəsi.

**V Mövzu:** Dilin mahiyyəti və mənşəyi. Dilin ictimai mahiyyət kəsb etməsi. Cəmiyyətin inkişafında dilin rolu. Dilin vəzifələri və ictimai xarakteri. Dilin nominativliyi, kommunikativliyi, ekspressivliyi və s. Kommunikasiya vasitələrinin iki qrupa bölünməsi: akustik və optik ünsiyyət vasitələri. Dilin mənşəyi.Dilin yaranması ilə bağlı nəzəriyyələr: səs təqlidi, əmək hıçqırıqları, nidalar, jestlər və günəş nəzəriyyəsi. Dilin yaranmasında danışıq üzvlərinin rolu.

### İnteqrativ tapşırıqlar:

Mövzular üzrə hazırlanmış test tapşırıqları üzrə iş;

Nəzəri dilçilik şöbələri ilə əlaqədar problem situasiyalr və onlarla bağlı müzakirələr;

Tərbiqi dilçilik şöbələri ilə bağlı qarşıya çıxan problemlər və onların həllinin müzakirəsi, aradan qaldırılması yolları;

Lüğətlərin yaradılması ilə bağlı təklif və nümunələrin hazırlanması...

**II Modul**

**VI Mövzu:** Sistem anlayışı, dil sistemləri. Dil sistemlər sistemi kimi. Dilin makro və mikrosistemləri.

**VII Mövzu:** Dünya dillərinin təsnifi prinsipləri, dil ailələri. Dünya dillərinin miqdarı, Dillərin yaranması ilə bağlı ilahi nəzəriyyə, dahi şəxsiyyət nəzəriyyəsi. Dillərin diferensasiya və unifikasiyası.

**VIII Mövzu:** Dillərin təsnifi prinsipləri. Morfoloji, genealoji və digər təsniflər.Dünyanın dil ailələri. Altay dilləri ailəsi. Türk dilləri ailəsi.Müasir türk dilləri.

**IX Mövzu:** Dil, yazı, əlifba məsələləri. Yazının yaranması. Cəmiyyətin, mədəniyyətin inkişafında yazının rolu, əhəmiyyəti. Yazının növləri. Fikrin əşyalarla ifadəsi. Piktoqrafik, ideoqrafik, sillobik və fonoqrafik yaı. Dilin işarəviliyi. Fonoqrafik yazı işarələri: hərflər, rəqəmlər, durğu işarələri. Əlifba anlayışı. Əlifbanın növləri. Geniş yayılmış əlifbalar: arami və yunan əlifbaları, onların əsasında yaranan əlifbalar.

**X Mövzu:** Dil və nitq, dil və düşüncə. Düşüncə haqqında anlayış. Dil və düşüncənin münasibəti. Dil və təfəkkürün vəhdəti problemi. Dil və təfəkkür vahidlərinin oxşar və fərqli cəhətləri.

Dil və nitq məsələsi. Nitqin formaları: monoloji və dialoji; şifahi və yazılı nitq. Nitqin növləri

**İnteqrativ tapşırıqlar:**

Dünya dillərinin yaranması, formalaşması ilə bağlı fikirlər, nəzəriyyələr haqqında fikir mübadiləsi;

Esselərin hazırlanması və fikir mübadiləsi;

Yazının yaranması ilə bağlı mövcud fikirlərin ümumiləşdirilməsi və testlərin hazırlanması;

Nitqin cəmiyyətin inkişafında rolu, karyera qurulmasında nitqin əhəmiyyəti və s. mövzularda esselərin hazırlanması və qiymətləndirilməsi....

**III Modul**

**XI Mövzu:** Dil və norma. Ümumxalq dilinin iki qolu: ədəbi dil və danışıq dili. Ədəbi dilin normaları tarixi kateqoriya kimi. Ədəbi dil və bədii dil məsələləri. Ədəbi dil və dialektlər.

**XII Mövzu:** Dil və üslub məsələləri. Funksional üslublar,onların səciyyəvi cəhətləri. Üslublar haqqında müasir fikirlər. Üslublar tarixi kateqoriya kimi. Ədəbi dilin funksional üslubları: bədii üslub, elmi üslub, publisistik üslub, rəsmi üslub, epistolyar üslub. Üslubların səciyyəvi cəhətləri, bir-biri ilə münasibəti.

**XIII Mövzu:** Dil və mədəniyyət. Onların qarşılıqlı əlaqəsi. Mədəniyyətin inkişafında dilin rolu. Mədəniyyət anlayışının müəyyənləşməsinə dair mülahizələr. Dil mədəniyyəti, yazı mədəniyyəti. Azərbaycanda yazı mədəniyyətinin inkişafı.

**XIV Mövzu:** Dil və cəmiyyətin əlaqəsi. Dil və cəmiyyət probleminin mahiyyəti. Dilin və cəmiyyətin inkişafı və onların bir-birinə təsiri. Dillərin sosial tipləri: qəbilə, tayfa, xalq dilləri və milli dillər.

**XV Mövzu:** Dil və siyasət. Dövlət və onun dili. Azərbaycanın dövlət dili. Türk dilləri arasında onun yeri. Dil siyasətində bilinqvizm. Polilinqvizm və onun əlamətləri. Dil kontaktları. Dil kontaktlarının istiqamətləri. Azkontaktlı və çoxkontaktlı dillər. Azərbaycan-türk dilinin digər düllərin inkişafında rolu.

**İnteqrativ tapşırıqlar:**

Ədəbi dilin yaranmasında normaların rolunun müəyyənləşməsi haqqında fikir mübadiləsi-debatlar;

Tələbələr-gənclər “cəmiyyətdə dilin rolu nədir?”; “Dillər necə yaranmışdır?”; “Ədəbi dil nədir, bir dilin dialektləri necə yaranır və s.?” mövzularda esselərin yazılması, debatların təşkili və tələbələrin qiymətləndirilməsi...

**Mövzular üzrə təlim nəticələri:**

1. Dünya dilçilik elminin keçdiyi inkişaf mərhələlərini öyrənir, ən mühüm dilçilik hadisələrindən xəbərdar olur.
2. Dünyada elmləri sırasında dilçiliyin yerini, mövqeyini müəyyənləşdirirlər;
3. Sahə, şöbə anlayışlarını fərqləndirir, dilçiliyə tətbiq edir, dil sistemlərini fərqləndirir.
4. Dünyada dillərin, əlifbaların, yazının yaranması haqqında məlumat alırlar.
5. Dil, yazı, əlifba məsələləri haqqında mükəmməl bilik əldə edirlər. Dillərin təsnifi prinsipləri ilə tanış olurlar.
6. Dil, nitq, düşüncə anlayışlarını öyrənir, onları fərqləndirməyi bacarır,əlaqələrini müəyyən edə bilirlər.
7. Müasir dövrdə dil və cəmiyyətin əlaqəsini, dil kontaktlarını və dilçiliyin digər elmlərlə sintezindən yaranan yeni sahələri öyrənirlər.
8. Yeni dövrdə dilçilik elmində baş verən yenilikləri bilir, müasir tədqiqat metodları və üsullarını öyrənir və s.

**Məşğələlərin mövzular üzrə bölgüsü**

**Kursun tədrisinə 3 kredit, 45 saat verilir.**

**Fənnin tədris tematik planı:**

| **sıra №-si** | **Mövzular** | **Saat** |
|---|---|---|
| | **I kurs, I yarımil** | **45 s** |
| 1 | Dilçiliyə giriş fənninin obyekti, məqsədi və vəzifələri, elmlər sistemində yeri | 4 |
| 2 | Dilçiliyin inkişaf dövrləri, qədim,orta dövr dilçiliyi | 4 |
| 3 | Yeni dövr dilçiliyi | 2 |
| 4 | Dilçiliyin elmlər sistemində yeri, digər elmlərlə əlaqəsi | 2 |
| 5 | Dilçiliyin sahələri, şöbələri, dil sistemləri | 4 |
| 6 | Dilin mahiyyəti və mənşəyi | 2 |
| 7 | Dünya dillərinin təsnifi prinsipləri, dil ailələri | 2 |
| 8 | Dil, yazı, əlifba məsələləri | 4 |
| 9 | Dil və nitq, dil və düşüncə | 4 |
| 10 | Dil və norma. Ədəbi dil və danışıq dili.Ədəbi dilin normaları | 4 |
| 11 | Dil və üslub məsələləri. Funksional üslublar,onların səciyyəvi cəhətləri | 2 |
| 12 | Dil və mədəniyyət. Dil mədəniyyəti, yazı mədəniyyəti | 2 |
| 13 | Dil və cəmiyyətin əlaqəsi,dillərin sosial tipləri | 4 |
| 14 | Heydər Əliyev və Azərbaycan dili. Dil və siyasət. Dövlət dili siyasəti. Azərbaycanın dövlət dili. | 4 |
| 15 | Dil və kontakt. Dil kontaktları və onun istiqamətləri. Dil kontaktlarının növləri | 1 |

**ƏDƏBİYYAT**


1. Babayev A. Azərbaycan dilçiliyinin tarixi. 2c. Bakı.2015
2. Budaqova Z. Müasir azərbaycan ədəbi dilində sadə cümlə. Bakı. 1963
3. Cəfərov S. Müasir Azərbaycan dilinin leksikası. Bakı, 1958
4. Dəmirçizadə Ə.Müasir Azərbaycan dilinin fonetiksaı. Bakı, 1960
5. Əliyev V. Heydər Əliyevin dil siyasəti. Bakı. 2003
6. Əlibəyzadə E.Azərbaycan dilinin tarixi. 2 c. Bakı. 2007
7. Fərəcov Ə. İzahlı dilçilik lüğəti. Bakı, 1969
8. Hüseynova M.Missiya. Bakı, 2019
9. Hüseynova M. Dilin elmi və estetik problemləri. Bakı.2019
10. Hüseynzadə M. Müasir Azərbaycan dili. Morfologiya. Bakı, 1954
11. Xəlilov B.Müasir Azərbaycan dili. Sintaksis. Bakı.2017
12. İsmayılova M.Azərbaycan dili və nitq mədəniyyəti. I c. Bakı.2016
13. Qurbanov A.Ümumi dilçilik məsələləri.Bakı, 1972
14. Qurbanov A.Ümumi dilçilik.Bakı, 1977
15. Qurbanov A. Türkoloji dilçilik. Bakı, 1976
16. Qurbanov A.Azərbaycan dilçiliyi problemləri. 2 c. Bakı, 2004, 2010.
17. Rəcəbov Ə. Dilçilik tarixi. Bakı, 1988
18. Rəcəbli Ə. Dilçilik tarixi.2 c. Bakı, 2006
19. Qurbanov A.Müasir Azərbaycan ədəbi dili. 2 c. Bakı, 2007
20. Seyidov Y.Azərbaycan ədəbi dilində söz birləşmələri. Bakı, 1969
21. Zeynalov F. Türkologiyanın əsasları. Bakı, 1981
22. Verdiyeva Z. Ağayeva F. Adilov M. Dilçilik problemləri. I h. Bakı, 1982

**Mündəricat**

İzahat vərəqi.........................................................................................................
Kompetensiyalar.....................................................................................................
Fənnin hədəfi, məqsədi..........................................................................................
Fənnin təlim nəticələri...........................................................................................
Qiymətləndirmə......................................................................................................
Fənnin tədrisində istifadə ediləcək təlim və öyrənmə metodları...................
Fənnin təsviri..........................................................................................................
Fənnin məzmunu....................................................................................................
Mövzular üzrə təlim nəticələri...............................................................................
Təqvim-tematik plan...............................................................................................
Ədəbiyyat siyahısı.................................................................................................